**UOT: 334.73, 631.115.08**

# KƏND TƏSƏRRÜFATINDA KOOPERASİYA MÜNASİBƏTLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Aytəkin Ağaxəlil qızı Hüseynova**

***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***
***e-mail: aytekin.ova81@gmail.com***

***Xülasə***

*Məqalədə müasir şəraitdə kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişaf etdirilməsi məsələlərinə baxılmış, aqrar sahədə istehsalçıların kooperativlərdə birləşmələrinin üstünlükləri şərh edilmişdir. Habelə Azərbaycanda kənd təsərrüfatı kooperasiyasının inkişafına dair qanunvericilik bazasının formalaşdırılması sahəsində irəliləyişlərdən bəhs edilmiş, aqrar sahədə kooperativlərin mövcud vəziyyəti təhlil olunmuşdur. Eyni zamanda kənd təsərrüfatında kooperativlərin fəaliyyətinin genişləndirilməsi imkanları göstərilmişdir.*

***Açar sözlər**: kooperasiya münasibətləri, kooperativ, fermer, iqtisadi inkişaf, istehsal, gəlir.*

## Giriş

Son illərdə Azərbaycanda dövlət səviyyəsində kənd təsərrüfatı sahəsində kooperasiya münasibətlərinin inkişafına diqqət daha da artmışdır. 2016-cı ildə "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanun qəbul olunmuş, 2017-ci ildə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatının və kənd ərazilərinin inkişafı üçün mövcud olan şərait və imkanlar çox müxtəlifdir, buna görə də konkret ərazilərin potensialını qiymətləndirmədən emal, eləcə də digər sənaye sahələri və kənd əraziləri üçün inkişaf strategiyasının hazırlanması mümkün deyildir.

Qeyd edək ki, aqrar sahənin və eləcə də kənd ərazilərinin dayanıqlı inkişafının təmin edilməsi, qarşılıqlı əlaqədə olan vəzifələrin, ilkin şərtlərin, amillərin və gələcək inkişaf yollarının hərtərəfli öyrənilməsi, müxtəlif qərarvermə variantlarının müəyyən olunması və bütöv bir sistemin inkişafının təmin edilməsi yalnız inteqrasiya olunmuş bir yanaşma əsasında mümkündür.

Hal-hazırda bir çox ölkələrdə kənd təsərrüfatının inkişaf səviyyəsindən asılı olmayaraq kənd məşğulluğunun artırılmasının və ərzaq təhlükəsizliyinin təmin edilməsinin vacib vasitəsinə çevrilməklə müxtəlif kooperativ strukturları geniş yayılmışdır. Bir çox sahələrdə öz xüsusiyyətlərinə uyğun olaraq kooperasiya istehsalın həcminin, səmərəliliyinin və investisiya cəlbediciliyinin artırılmasının əsas amillərindən biridir.

## Kənd təsərrüfatında kooperasiyanın rolu

Kənd təsərrüfatı kooperasiyasının inkişaf etdirilməsində əsas məqsəd əhalinin lazımi miqdarda və keyfiyyətli ərzaq məhsullarına olan tələbatını ödəməkdir. Bu istiqamətdə kooperativlər bir sıra təşkilati və iqtisadi problemlərin həllində, eləcə də kənd təsərrüfatı istehsalçılarının istehsal vasitələri ilə, emalçıların istehsal üçün xammalla təmin edilməsində əhəmiyyətli rol oynaya bilir.

Kooperasiya münasibətlərinin əsas inkişaf etdiyi ABŞ və Avropa ölkələrinin bazar iqtisadiyyatı çərçivəsində olduqca uğurlu nəticələr əldə edilmişdir. Xüsusilə Şimali Avropa ölkələri - Hollandiya, Danimarka və Finlandiya daha çox fərqlənir. Eyni zamanda Koreya və Yaponiyanın az tanınmış nümunələri də mövcuddur. Bu ölkələrdə kənd təsərrüfatının ümumi strukturunda kooperasiya layiqli yer tutur.

Kooperasiyanın hədəfləri müflisolmadan məharətlə qorunmaq və kiçik mülkiyyət sahibinə həm ölkə daxilində, həm də dünya miqyasında böyük müəssisələrlə rəqabətdə fəaliyyət üçün sabit şərait təmin etməkdir. Böyük aqrobiznes təsərrüfatlarında resurslardan səmərəli istifadə və yüksək keyfiyyətli toxumlardan istifadə etməklə bazara bərabər çıxış imkanları daha geniş olduğundan istehsal etdikləri məhsul daha rəqabətqabiliyyətli olur. Kiçik təsərrüfatlarda isə göstərilən imkanlar məhduddur. Məhz bu amillər kiçik təsərrüfatların birgə fəaliyyətini şərtləndirir.

Rəqabət qabiliyyəti iki əsas faktorla müəyyənləşdirilir: qiymət və məhsulun keyfiyyəti. Eyni zamanda ikincisi tədricən əsas sayılır. Məhsulun keyfiyyəti bilavasitə istehlak dəyəri ilə əlaqədardır (4).

E.A. Quliyevin qeyd etdiyi bu fikir hazırda istehsalçıların diqqət yetirəcəyi əsas məsələlərdən biridir. Daxili bazarda qiymət alıcılıq qabiliyyətindən asılı olduğu zaman keyfiyyət amili diqqətdən kənarda qalır, lakin xarici bazara çixmaq üçün həm qiymət amili, həm də keyfiyyət amili mühüm rol oynayır. Bu isə fermerlərin birgə fəaliyyəti ilə mümkündür. Yəni onlar birgə fəaliyyət nəticəsində rəqabətqabiliyyətli məhsul istehsal edə bilərlər.

“Kənd təsərrüfatı kooperasiyası haqqında” Qanuna görə, bu sahədə kooperativlərin təşkili və fəaliyyəti könüllülük, demokratik əsaslarla idarəolunma, üzvlərin kooperativin fəaliyyətində eyni əsaslarla iştirakı, sərbəst fəaliyyət göstərmək və müstəqillik prinsipləri əsasında həyata keçirilir (1).

Respublikamızda aqrobizneslə məşğul olan böyük şirkətlər mövcuddur və onlar fəaliyyətlərini daha da genişləndirməkdədir. Belə bir şəraitdə kənd təsərrüfatı kooperasiyası böyük aqrobizneslə rəqabət şəraitində kiçik kənd təsərrüfatı istehsalçılarını dəstəkləmək və yaşatmaq yollarından biridir. Digər tərəfdən, kooperativin klassik versiyasında birlik kollektivləşmə demək deyil: kiçik fərdi təsərrüfatlar fərdi mülkiyyətçiliyini və müstəqilliklərini saxlayır, lakin bəzi iş əməliyyatları birlikdə aparılır.

Kooperasiyanın inkişafı əhalinin həyat səviyyəsinin yüksəldilməsinin açarı olan istehlak malları istehsalının və kooperativ üzvlərinin gəlirlərinin davamlı artırılmasına yönəldilmiş müasir texnologiyaların kiçik və orta sahibkarlıq subyektlərində istifadəsi üçün imkanları təmin etməyə yönəlir.

## Aqrar sahədə kooperativ növləri və onların fəaliyyət istiqamətləri

Kənd təsərrüfatı kooperativi - kooperativ üzvlərinin maddi və digər ehtiyaclarını ödəmək məqsədi ilə əmlak paylarının birləşməsinə əsaslanan birgə istehsal və ya digər təsərrüfat fəaliyyəti üçün könüllü üzvlük əsasında kənd təsərrüfatı istehsalçıları tərəfindən yaradılan bir təşkilatdır. “Kənd

təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində fəaliyyət xarakterinə görə kooperativlərin istehsal, istehlak kooperativləri və yaxud qarışıq növlü (istehsal-istehlak) ola biləcəyi göstərilmişdir.

Kooperativin üzvləri kooperativ nizamnaməsi ilə müəyyən edilmiş miqdarda və qaydada iştirak payı əldə etmiş və səsvermə hüququ ilə kooperativə qəbul edilmiş fiziki və hüquqi şəxslər ola bilər.

İstehsal kooperativinə klassik nümunə: eyni məhsul istehsal edən bir neçə ailə-kəndli təsərrüfatı bir araya gələrək birgə istehsal etdikləri məhsulun emalı üçün avadanlıq alır, yeni məhsul istehsalına başlaya bilir və bunun üçün əlavə işçilər götürürlər. Bu, yeni bir müəssisənin yaradılması olmaqla kəndlilərə məxsus kooperativ (emal və marketinq) olacaqdır. Yeni yaradılan müəssisəyə fermerlər istehsal etdikləri məhsulu təhvil verməklə dəyər zəncirində yeni məhsul (süddən kərə yağı, pendir; üzümdən şərab, bəhməz; ətdən kolbasa və s.) alır və beləliklə, onu topdansatış imkanı əldə edirlər. Kiçik təsərrüfatların birləşməsi onlara iri təsərrüfatlarla rəqabət aparmağa imkan verir. Onu da qeyd edək ki, kooperativdə üzvlərin səsi (yəni bir üzv - bir səs) əsas olduğu halda, digər birgə fəaliyyət göstərən cəmiyyətlərdə kapital əsas olur (yəni kim daha çox səhmə malikdirsə, qərar da ona məxsusdur). Lakin nəzərə almaq lazımdır ki, aqrobiznes sferasında fəaliyyət göstərən təsərrüfatlarda əldə edilən gəlirin xeyli hissəsi nəqliyyat və digər infrastruktur xidmətlərinin xərclərinin maliyyələşdirilməsinə sərf olunur və belə təsərrüfatların fəaliyyətində iqtisadi səmərəlilik aşağı düşür. Bu sferada böyük aqrobiznes şirkətləri inhisarçılığa meyilli olur ki, bu da ümumi iqtisadi inkişafa mənfi təsir edir. Kiçik təsərrüfatların birgə fəaliyyətində isə bu kimi çətinliklər yaranmır.

İstehlak kooperativi istehsal kooperativindən fərqli olaraq müxtəlif funksiyaları yerinə yetirə bilər: məhsulların emalı, onların saxlanması və marketinqi, gübrələrin, yemlərin və toxumların alınması, habelə üzvlərinə borc vermək. İstehlak kooperativi üzvlərinin onun fəaliyyətində iştirak etmələri daha məqsədəuyğun hesab edilir. İstehlak kooperativləri qeyri-kommersiya təşkilatlarıdır və fəaliyyət növlərindən asılı olaraq bunlara bölünürlər: emal, satış (ticarət), xidmət, təchizat, tərəvəzçilik, bağçılıq, bostançılıq, heyvandarlıq, kredit, sığorta və qanuna uyğun olaraq yaradılan digər kooperativlər. Hər bir kooperativ adından göründüyü kimi müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərir. Hazırda respublikamızın kənd təsərrüfatında bu istiqamətlərdən kənd təsərrüfatı məhsulları istehsalı üzrə fəaliyyət göstərən kooperativlər üstünlük təşkil edir. Ölkədə kənd təsərrüfatı sahəsi üzrə fəaliyyət göstərən kooperativlərin sayının 2014-2019-cu illər üzrə dinamikası ***Şəkil***də verilmişdir:

**Şəkil. 2014-2019-cu illərdə kənd təsərrüfatı kooperativlərinin sayı**




***Mənbə:*** *(7)*

Statistik məlumatların təhlili göstərir ki, kooperativlərin sayı son illərdə azalmaya meyillidir. Burada əsas səbəb olaraq kooperativin fəaliyyət mexanizminin düzgün qurulmamasını, kooperativin kollektiv idarəolunması prinsipinə düzgün əməl edilməməsini və s. göstərmək olar.

Araşdırmalar göstərir ki, ölkəmizdə fermer təsərrüfatları kiçik təsərrüfat formasında fəaliyyət göstərirlər və onlar istehsal, daşınma, qablaşdırma və satışla özləri təkbaşına məşğul olmağa məcburdurlar. Eyni zamanda tələb və təklif nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının satış qiymətini bazar təyin edir. Deməli, istehsalçıları bazar siqnallarına cavab verməyə, səmərəli idarəetməyə və minimum xərcləri olan keyfiyyətli məhsul istehsalına məcbur edən bazar motivləri mövcuddur. Məhz bu kimi amillər də öz növbəsində kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişaf etməsini şərtləndirir.

XX əsrin əvvəllərində kəndin təbii quruluşunun parçalanmasında və bazar münasibətlərinin qurulmasında kəndli təsərrüfatının sabitliyini əsaslandıraraq A.V. Çayanov bu fəaliyyətdəki hər bir proses üçün "böyük formanın dərhal böyük fayda verdiyini" göstərmişdir (5). Göründüyü kimi, Çayanovun iri təsərrüfat formasında birgə fəaliyyətin daha səmərəli olduğunu öz tədqiqatlarında göstərməsindən bir əsrə yaxın vaxt keçməsinə baxmayaraq kooperasiya münasibətlərinin inkişaf etdirilməsi aktuallığını saxlamışdır.

Kəndli təsərrüfatları ayrı-ayrı texniki və ya iqtisadi prosesləri təşkilati planlarından asanlıqla ayırmaqla onları qonşu təsərrüfatların eyni prosesləri ilə birləşdirə və həyata keçirilməsi üçün tələb olunan istənilən rasional ölçüdə kooperativ müəssisəsi təşkil edə bilər. Bu "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanunda da öz əksini tapmışdır. Yəni kooperativ təsərrüfatlarda fəaliyyət göstərmək heç də mülkiyyət hüququnu və fəaliyyət müstəqilliyini itirməyə səbəb olmur.

Aqrar islahatlar dövründə yeni nəsil kənd sakinləri böyüdülər və onlara müasir kooperasiya ideyaları yad deyil. Buna görə bu gün söhbət kənd təsərrüfatı kooperasiyasının canlanmasından gedir. Kooperativlər haqqında Sovetlər Birliyi dönəmində də müəyyən qədər məlumat və təcrübə olmuşdur. Lakin bu gün yeni qanunvericiliklə kooperasiya münasibətlərinə fərqli yanaşma tətbiq olunur. Kooperasiyaya dair normativ hüquqi bazanın hazırlanmasında inkişaf etmiş xarici ölkələrin təcrübəsindən istifadə olunmuşdur.

Sovetlər dönəmində də kənd təsərrüfatının gəlirli işləməsi, özünümaliyyələşdirmə, rəqabətqabiliyyətli məhsul istehsalı istiqamətində çoxlu cəhdlər edilmişdir. Burada idarəetmə sistemində olan çatışmazlıqlar və istehsalçıların alqı-satqıda müstəqil olmamaları yüksək müsbət nəticələrin əldə edilməsinə imkan vermirdi. Baxmayaraq ki, mövcud təsərrüfatlarda peşəkar aqrar kadrların sayı artırdı, lakin idarəetmədə olan yanlışlıqlar inkişafın qarşısını alırdı. Təsərrüfatlara şəxsi kapital əldə etmək haqqında deyil, ölkə əhalisinin tələbini ödəmək haqqında düşünmək təbliğ olunurdu. Digər tərəfdən kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi bazar iqtisadiyyatlı ölkələrdən geri qalırdı ki, bu da müstəqillik əldə edildikdən sonra özünü kəskin şəkildə göstərdi. Aqrar islahatlardan sonra yaranan kiçik təsərrüfatlarda isə yuxarıda qeyd edilən maneələr ortadan qaldırılsa da, təsərrüfatların həddən artıq kiçik ölçülərə (1-5 ha) malik olması istehsalçılara əldə edilən gəlirlə yalnız öz ehtiyaclarını qismən ödəməyə imkan verir, əlavə kapital toplama imkanları demək olar ki, olmur. Bu da istehsalçılara növbəti təsərrüfat fəaliyyətini qurmağa imkan vermir. Xüsusi araşdırmaların nəticəsinə görə ölkədə fəaliyyət göstərməkdə olan ümumi ailə-kəndli təsərrüfatlarının 80 faizindən çoxunun ölçüləri yaşayış minimumu meyarına uyğunluq baxımından tələb olunandan kiçikdir (6).

2015-ci ilin siyahıyaalınmasına görə, 336365 ailə-kəndli təsərrüfatı tərəfindən 57634 hektar sahəyə kartof, 386365 ailə-kəndli təsərrüfatı tərəfindən 67003 hektar sahəyə tərəvəz əkini həyata keçirilmişdir. Göründüyü kimi, 2015-ci ildə ümumi kartof əkininin 94%-ni, tərəvəz əkininin 86.8%-ni ailə-kəndli təsərrüfatları həyata keçirmişdir. Onların pay torpaqlarının əsasən 1-5 hektar arasında dəyişdiyini nəzərə alsaq, yüksək iqtisadi səmərəliliyin əldə edilməsinin mümkünsüz olduğunu deyə bilərik. Məsələn, Almaniyada kəndli təsərrüfatlarının torpaq sahəsi orta göstəricidə 15 hektar təşkil edir. Almaniya Federal Hökuməti təsərrüfatların böyüməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirir ki, nəticədə fermerlərin gəlirləri artsın.

Azərbaycanda da bu yöndə bir sıra təşviq tədbirləri həyata keçirilir. Belə ki, yeni subsidiya qaydalarına uyğun olaraq 50 hektardan çox torpaq sahəsində aparılan əkinə və ya çoxillik əkməyə görə kənd təsərrüfatı kooperativlərinə əkin subsidiyası 10 faiz artırılmaqla verilir (3).

Ölkə üzrə fəaliyyət göstərən bəzi kooperativlərin 2017-ci il üzrə statistik məlumatları aşağıdakı ***Cədvəl***də verilmişdir:

**Cədvəl. Bəzi kooperativlərin 2017-ci il üzrə statistik məlumatları**

| Kooperativin adı | Yerləşdiyi ərazi | Kooperativ üzvlərinin sayı, nəfər | Ümumi torpaq sahəsi, hektar | Ondan əkin yeri, hektar | Örüş (otlaq) sahəsi, hektar | Kənd təsərrüfatı heyvanları, baş | İribuynuzlu heyvanlar, baş | Xırdabuynuzlu heyvanlar, baş | Quşlar (qaz, ördək, hindquşu, toyuq, sesar və s.), baş |
|---|---|---|---|---|---|---|---|---|---|
| **“Şindan” kooperativi** | Astara rayonu, Şiyəkəran kəndi | 4 | 49 | 49 | - | 529 | 58 | 471 | - |
| **“Qazma” istehsal kooperativi** | Balakən rayonu, Qazma kəndi | 4 | 50 | 30 | 20 | 370 | 45 | 325 | - |
| **“Binə” istehsal kooperativi** | Balakən rayonu, Talalar kəndi | 4 | 48 | 20 | 28 | 225 | 45 | 150 | 30 |
| **Veteranların müstəqil “Bahar” kooperativi** | Biləsuvar şəhəri | 5 | 77 | 60 | 17 | - | - | - | - |
| **“Bərəkət” müstəqil heyvandarlıq kooperativi** | Biləsuvar rayonu, Xırmandalı kəndi | 3 | 50 | - | 50 | 5 | 5 | - | - |
| **“Göygöl” kooperativi** | Biləsuvar rayonu, Bəydili kəndi | 3 | 3 | 3 | - | - | - | - | - |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **“Örənqala” heyvandarlıq məhsullarının emalı və satışı kooperativi** | Beyləqan rayonu, Şəfəq qəsəbəsi | 9 | 23 | 10 | 13 | 357 | 7 | 350 | - |
| **“Vətən” təmir-tikinti kooperativi** | Göygöl şəhəri | 6 | 89.3 | 2.3 | 87 | 357 | 7 | 350 | - |
| **“Qələbə” kooperativi** | Göygöl rayonu, Kərəmli kəndi | 5 | 5 | 2.9 | 2.1 | - | - | - | 100 |
| **Müstəqil “Əmək” kooperativi** | Qazax rayonu, Hüseynbəyli kəndi | 5 | 495 | 5 | 490 | 1440 | 26 | 1414 | - |
| **“Bərəkət” kooperativi** | Sabirabad rayonu, Moranlı kəndi | 16 | 140 | 38 | 102 | 899 | 34 | 865 | - |
| **Heyvandarlıq istehsal kooperativi** | Samux şəhəri | 5 | 41 | 41 | - | 267 | 27 | 240 | - |
| **“Bəhrəli” kooperativi** | Yardımlı rayonu, Zəngələ kəndi | 12 | 170 | 20 | 150 | 615 | 13 | 602 | |
| **“Qaya” kooperativi** | Yardımlı rayonu, Arvana kəndi | 14 | 100 | 35 | 65 | 425 | 25 | 400 | 55 |
| **Muxax istehsal kooperativi** | Zaqatala rayonu, Muxax kəndi | 2 | 290.55 | 240.55 | 50 | 35 | 35 | - | 700 |

***Mənbə:*** *Müəllif tərəfindən aparılmış sorğular əsasında hazırlanmışdır.*

Əldə edilmiş təsərrüfat məlumatlarının təhlili göstərir ki, mövcud olan kooperativlər əsasən heyvandarlıqla məşğul olur. Qeyd edilən kooperativlərdə ən çox üzv Sabirabad rayonunda yerləşən “Bərəkət” kooperativində və Yardımlı rayonunda yerləşən “Bəhrəli” və “Qaya” kooperativlərindədir.

Kooperativlərin inkişaf etdirilməsi istiqamətində son illərdə mühüm addımlar atılmaqdadır. Yeni yaradılan və 1365 ailənin birləşdiyi 10 kooperativdə üzvlərin sayı 4660 nəfər olmuşdur. Bu kooperativlərin ümumilikdə torpaq sahəsi 4730 hektar, bir nəfərə düşən torpaq sahəsi isə 1.02 hektar təşkil edir. Yeni yaradılan kooperativlərin fəaliyyət istiqamətlərinin genişlənməsi gələcəkdə onların səmərəliliyini və sosial yönümlülüyünü artıra bilər.

## Nəticə

Kooperasiya münasibətlərinin inkişaf etdirilməsi üçün normativ hüquqi bazanın olmasına baxmayaraq mövcud ailə-kəndli təsərrüfatları buna yüksək maraq göstərmirlər. Eyni zamanda iqtisadiyyatın ümumi inkişaf perspektivləri nəzərə alınmaqla ölkəmizin kənd təsərrüfatında kooperasiyanın genişlənməsi üçün əlverişli imkanlar mövcuddur.

Bölgələrdə kooperasiya proseslərinin inkişafında vacib amillərdən biri müvafiq əlverişli mühitin olmasıdır. Bura aşağıdakıları aid etmək olar:

- *kooperativin məhsul və ya xidmətlərinə tədiyyəqabiliyyətli tələb;*
- *aktiv və təşəbbüskar yerli təsərrüfatların və kənd sakinlərinin olması;*
- *kooperasiyanın təbliği və populyarlaşdırılması.*

Kənd yerlərində kooperasiya münasibətlərinin fəallaşdırılması vasitəsilə kiçik təsərrüfatların inkişafı üçün kənd təsərrüfatı məhsullarının kooperativlər vasitəsilə satılmasının stimullaşdırılması istiqamətində tədbirlər həyata keçirilməsi, habelə kiçik əmtəə istehsalçılarından kənd təsərrüfatı məhsullarının alınması məqsədi ilə kənd təsərrüfatı istehlakçı kooperativlərinin yaradılmasının sürətləndirilməsi məqsədəuyğundur.

## Ədəbiyyat

1. "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ nömrəli Qanunu.
2. "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 iyul tarixli 3099 nömrəli Sərəncamı.
3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydası". http://akia.gov.az/az/single/34
4. E.A. Quliyev. "Aqrar iqtisadiyyat" - Ali məktəb tələbələri üçün dərslik. Bakı-2015, "Kooperasiya", 320 səh.
5. Чаянов А.В. Основные идеи и методы работы общественной агрономии. - М.: Новаядеревня, 1924
6. N.Ə. Şalbuzov. "Bitkiçilikdə ailə-kəndli təsərrüfatlarının minimum zəruri ölçüləri: yaşayış minimumu meyarı üzrə yanaşma". "Kənd Təsərrüfatının İqtisadiyyatı" elmi-praktik jurnalı, 2020 № 1 (31). https://agroeconomics.az/az/article/14/bitkicilikde-aile-kendli-teserrufatlarinin-minimum/
7. https://www.stat.gov.az/source/agriculture/

A.A. Huseynova
*Ph.D. student* of Azerbaijan Cooperation University

**Development directions of cooperative relations in agriculture**

*Summary*

*The article considers the development of cooperative relations in agriculture in modern conditions. The advantages of merging producers in cooperatives in the agricultural sector, are explained. Progress in the formation of the legislative framework for the development of agricultural cooperation in Azerbaijan is revealed and the current situation of cooperatives in the agricultural sector is analyzed. At the same time, opportunities to expand the activities of cooperatives in agriculture were shown.*

***Keywords:*** *cooperative relations, cooperative, farmer, economic development, production, income.*

А.А. Гусейнова
*Диссертант* Азербайджанского университета кооперации

**Направления развития кооперативных отношений в сельском хозяйстве**

*Резюме*

*В статье рассматривается развитие кооперативных отношений в сельском хозяйстве в современных условиях. Объясняются преимущества объединения производителей в кооперативы в сельскохозяйственном секторе. Отмечается прогресс в формировании законодательной базы для развития сельскохозяйственной кооперации в Азербайджане, и анализируется текущее положение кооперативов в сельскохозяйственном секторе. В то же время были показаны возможности расширения деятельности кооперативов в сельском хозяйстве.*

***Ключевые слова:*** *кооперативные отношения, кооператив, фермер, экономическое развитие, производство, доход.*